

# Cənnətə çevrilən diyar

*Vətən müharibəsinin 28-ci günündə - 2020-ci ilin oktyabrın 25-də xalqımız Qubadlı rayonunun işğaldan azad edilməsini böyük sevinc hissi ilə qarşıladı. Ermənistan silahlı qüvvələrinin təcavüzkar hücumları nəticəsində rayon 31 avqust 1993-cü il tarixində işğal olunmuşdur. Qubadlı rayonu qərbdən 120 km məsafədə Ermənistan Respublikası ilə, şimaldan Laçın, Xocavənd, şərqdən Cəbrayıl, cənubdan isə Zəngilan rayonları ilə həmsərhəddir. İşğaldan öncə Qubadlıda 13160 hektar meşə sahəsi olub. Rayonun ərazisi təbii dərman bitkiləri ilə də zəngindir.*






Ermənistan tərəfindən işğal dövründə tamamilə dağıdılan Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı əməli-praktiki işlər aparılır. Rayonun kəndləri, o cümlədən Qubadlı şəhəri yenidən qurulur. Baş plan ən müasir normalara uyğun uğurla həyata keçirilir.

Prezident İlham Əliyev Qubadlıda rayon ictimaiyyəti ilə keçirdiyi görüşlərdə məhz hər bir yaşayış məntəqəsinin işğaldan azad edilməsinin tarixi hadisə olduğunu bildirdi. Şəhidlərimizi hörmətlə yad etdi. Azad edilmiş bütün şəhər və kəndlərimizdə bərpa-quruculuq başa çatandan sonra onların adlarının məktəblərə və küçələrə veriləcəyini də nəzərə çatdırdı.

Dövlət başçısı işğaldan azad edilmiş digər ərazilərə olduğu kimi, Qubadlıya səfərləri də bir çox önəmli təməlqoyma və açılış tədbirləri ilə əlamətdardır. Bu səfərlər bölgələrdə bərpa və yenidənqurmanın böyük vüsətlə həyata keçirildiyindən xəbər verir. İşğaldan azad edilmiş ərazilərdə görülən bütün işlər yalnız bir məqsəd naminə - əzəli yurd yerlərimizin əsaslı bərpasına və keçmiş köçkünlərin tezliklə öz doğma torpaqlarına, dədə-baba yurdlarına qayıda bilmələri üçün həyata keçirilir.

Bərpa-quruculuq sürətlə həyata keçirildiyindən sakinlər azad edilən bütün bölgələrimiz kimi, Qubadlıya da qayıdacaqlar.

Qeyd edək ki, Qubadlı rayonu kənd təsərrüfatı üçün əlverişli olmaqla yanaşı, zəngin faydalı qazıntıları ilə tanınır. Belə ki, rayonun Hacılı kəndində mişar daşı, Bərgüşad çayının sol sahilində yaşəm, Əliquluuşağı, Qundanlı, Muradxanlı və Başarat kəndlərində mərmərləşmiş əhəngdaşı, Mollabürhan kəndinin cənubunda tuf daş yataqları mövcuddur. Həmçinin rayonun Xanlıq kəndində qum-gil, Eyvazlı kəndində əqiq yatağı var.

Prezident İlham Əliyevin 2020-ci ilin 23 dekabrında rayonda şanlı bayrağımızı ucaltması xalqımızı ürəkdən sevindirdi. Bu gün Qubadlı ra-

ruculuq-bərpa işləri sürətlə və uğurla həyata keçirilir, rayonun gələcək inkişafı üçün praktiki işlər aparılır. Bu infrastruktur layihələrində Qubadlının 2050-ci ilə qədərki inkişaf dinamikasını nəzərə alınır.

Rayon sakinləri ilə söhbətimizdən aydın oldu ki, onlar bərpa-quruculuq başa çatan kimi öz yurduna dönərək orada xoşbəxt yaşayacaqlar. Eyni zamanda onlar Ermənistanın vaxtilə işğalda saxladığı digər rayonlarımız kimi, Qubadlıda törətdiyi vəhşiliklərə görə də beynəlxalq hüquq qarşısında cavab verəcəkləri günü səbirsizliklə gözləyirlər. Çünki Qubadlıda da çoxsaylı hərbi cinayətlər törədilib. Cenevrə konvensiyalarına zidd olaraq işğal edilmiş torpaqlarımızda qanunsuz məskunlaşma aparılıb.

Rayon sakinləri Qələbə günlərinin əbədiləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilməsini məmnunluq hissilə vurğuladılar. Həmin Sərəncama əsasən 25 oktyabr Qubadlı Şəhəri Günü müəyyən olub.

Qubadlıda dövlətimiz və yerli təşkilatlar tərəfindən şəhərin infrastrukturu yenidən qurulur. Məqsəd şəhərin əvvəlki iqtisadi və mədəni əhəmiyyətini bərpa etmək, əhalinin yenidən Qubadlıda rahat və təhlükəsiz yaşayışını təmin etməkdir.

Tarixən bəllidir ki, Qubadlı şəhəri həm coğrafi mövqeyi, həm də strateji baxımdan mühüm əhəmiyyətə malik olduğundan bu bölgənin də bərpası prioritet hesab edilir. Bu səbəbdən də bərpa-quruculuq çərçivəsində burada yeni-yeni infrastruktur layihələri həyata keçirilir. Yollar çəkilir, su, elektrik və qaz təchizatı bərpa olunur.

İşğaldan azad olunan bütün ərazilərdə olduğu kimi, Qubadlıda da yaşayış binaları, məktəblər, xəstə-

kilir. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları tətbiq olunur və dayanıqlı inkişaf prinsipləri prioritet təşkil edir.

Onu da qeyd edək ki, Qubadlı şəhərinin yenidən qurulması layihələri, həmçinin xarici investisiyalar cəlb etmək və turizmi inkişaf etdirmək məqsədi daşıyır. Rayonun zəngin təbiəti və tarixi-mədəni irsinin qorunub saxlanılması və gələcəkdə daha geniş miqyasda istifadəsi nəzərdə tutulur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə dövlətimizin başçısının çıxışı hər kəsin xatirəsində dərin iz buraxıb. Dövlət başçımız həmin görüşdə dedi ki, bizim planlarımız işğalda olan bütün torpaqları azad etmək idi. Ancaq bilmirdik, düşmən nə vaxt təslim olacaq. Halbuki, müharibə zamanı mən dəfələrlə öz çıxışlarımda, xalqa müraciətlərimdə və xarici jurnalistlərə müsahibələrdə deyirdim ki, əgər düşmən bizə torpağımızdan çıxması ilə bağlı tarix versə, biz müharibəni dayandırmağa hazırıq və bu sözə də əməl etdik...

Noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı.

Oktyabr ayının 25-də Qubadlının azad olunması Azərbaycanın Zəfər yürüşünü daha da sürətləndirdi. Laçın istiqamətində Silahlı Qüvvələrimizin yolu açıldı və bir neçə gündən sonra ordumuz Laçının cənub hissəsində yerləşən kəndləri işğalçılardan təmizlədi. Beləliklə, Laçın dəhlizi nəzarətə götürüldü və bununla da demək olar ki, müharibənin taleyi həll edildi. Artıq həm bütün dünya, həm də düşmən gördü ki, Azərbaycanın önündə heç bir qüvvə dayana bilməz. Bu qətiyyət, bu güc, bu xalq-ordu-Prezident vəhdəti sayəsində də Azərbaycan Zəfər yürüşünü, Zəfər missiyasını şərəflə davam etdirərək, Dövlət Bayrağını noyabrın 8-də Şuşada ucaltdı.

Rayonun işğaldan azad edilməsi tarixi hadisə oldu və şəhərin azad edilməsi böyük Qələbəni yaxınlaşdırdı. Beləliklə, Qubadlı rayonunun azad olunması strateji baxımdan Azərbaycanın daha bir üstünlüyü əldə etməsinə gətirib çıxardı.

Onu da qeyd edək ki, Ermənistanla ən böyük sərhəd rayonlardan biri olan Qubadlıda sərhədlərin möhkəmlənməsi və bu istiqamətdə hərbi quruculuq işləri aparılır.

Cəbrayıldan sonra Qubadlı Şərqi Zəngəzur iqtisadi zonasında 11 min hektar əkin sahəsinə malikdir. Qubadlıda torpaqların dövriyyəyə girməsi bizim iqtisadi təhlükəsizliyimizdə olduqca önəmli əhəmiyyət kəsb edir və turizmin inkişafı üçün də hərtərəfli şərait yaradır. Bununla yanaşı, rayonda regionun inkişafı üçün iqtisadi resurslar, faydalı qazıntılar çoxdur. Ölkəmizin ən böyük su ehtiyatlarından biri olan Həkəri və Bərgüşad çayı məhz Qubadlıdan keçir. Bu cür bol sulu çayların mövcudluğu rayonunun ölkəmizdə kənd təsərrüfatının tərəqqisi yolunda rolunu genişləndirir.